# Sumqayıt regionun ən modern və abad şəhərlərindən birinə çevrilir



**Başa çatmaqda olan 2015-ci il xalqımız üçün əvvəlki dövrlərdə olduğu kimi mühüm siyasi, sosial-iqtisadi və mədəni uğurlarla əlamətdardır. Dünyada cərəyan edən gərgin siyasi-hərbi proseslərə, iqtisadi böhrana rəğmən makroiqtisadi göstəricilər Azərbaycanın inkişafından xəbər verir. Ölkə rəhbərliyinin həyata keçirdiyi uğurlu siyasətin nəticəsi olaraq hər cür təhdid və narahatlığın hökm sürdüyü müasir dünyada sabitlik adasına çevrilən Azərbaycan öz yolu ilə inamla addımlayır, tərəqqi edir, regionun lideri statusunu layiqincə daşıyır. Respublikamızda əldə edilən sosial-iqtisadi uğurları hər bir vətəndaş öz gündəlik həyatında, məişətində hiss edir. Eyni zamanda, bütün regionlarda sosial və infrastruktur layihələr dayanmadan icra olunur, məktəb və xəstəxanalar tikilir, yollar çəkilir, körpülər salınır, park və xiyabanlarda, memarlıq binalarında yenidənqurma işləri aparılır. Ölkəmizdəki bu yüksəlişi Sumqayıtın da timsalında aydın görmək mümkündür. Hələ sovet dövründə Azərbaycanın əsas sənaye mərkəzi statusuna sahib olmuş Sumqayıt bu şərəfli adı indi də şərəflə daşıyır. Prezident İlham Əliyevin inkişaf strategiyasının nəticəsi olaraq, şəhərdə yeni istehsal müəssisələrinin yaradılması, bir sıra ənənəvi istehsal sahələrinin fəaliyyətinin canlandırılması bunu təsdiq edir.**

## Ulu öndərin inkişaf yoluna çıxardığı şəhər

Heydər Əliyev 1969-cu ildə Azərbaycana rəhbər seçilən Sumqayıtda əsasən metallurgiya və kimya müəssisələri var idi. Bir il sonra məhz ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə yüngül sənaye müəssisələri və sənayenin digər sahələri inkişaf etdirildi, yeni istehsal sahələri istismara verildi. Ümumiyyətlə, 1969-1982-ci illərdə ulu öndərin rəhbərliyi altında Sumqayıtda bir çox müəssisələr istifadəyə verilmişdir. Bunlardan kompressorlar zavodunu, üst trikotaj və xovlu iplik fabriklərini, süd və yeyinti məhsulları kombinatlarını, 20-dən çox orta məktəbi, uşaq bağçalarını, Ü.Hacıbəyli adına "Kimyaçılar" mədəniyyət sarayını və başqa obyektləri misal göstərmək olar.

Məhz ötən əsrin 70-ci illərində əsaslı tikintinin geniş miqyas alması nəticəsində Sumqayıt nəhəng tikinti meydançasına çevrilmişdi. Şəhərə gələn qonaqlar, xarici nümayəndələr burada aparılan nəhəng quruculuq prosesinin miqyası və vüsətinə heyran qalırdılar. Dünyanın demək olar ki, əksər ölkələrinə ixrac olunan şəhər sənayesi məhsullarının keyfiyyəti ilə daim maraqlanan, tez-tez məlumatlar alan ölkə başçısı Sumqayıtı daim öz nəzarəti altında saxlayır, onun ortaya çıxan bütün problemlərini operativ həll edirdi. Bu diqqət və qayğının nəticəsi idi ki, ötən əsrin 70-ci illərində Sumqayıtda hər il 80 min kvadratmetr mənzil sahəsi tikilib istifadəyə verilirdi. Hazırda fəaliyyət göstərən istehsalat sahələrinin çoxu, 40-dan artıq ümumtəhsil məktəbi, uşaq tərbiyə müəssisələri, saysız-hesabsız mədəniyyət, məişət xidməti, ticarət obyektləri, səhiyyə ocaqları məhz ümummilli liderin o dövrdəki məqsədyönlü siyasətinin bəhrələridir.

Ulu öndər ikinci dəfə hakimiyyətdə olduğu dövrdə də əvvəlki kimi, Sumqayıta daim diqqət və qayğı göstərmişdir. Bu qayğının nəticəsində Sumqayıt yenidən dirçəliş dövrünü yaşamağa başlamışdır. Ulu öndərin uğurlu və uzaqgörən siyasəti, verdiyi tövsiyə və tapşırıqlar şəhərin sosial-iqtisadi inkişafına böyük təkan vermiş, sakinlərində qurub-yaratmağa həvəs, gələcəyə böyük inam yaratmışdır. Məhz ümummilli liderin müdrik və uzaqgörən iqtisadi inkişaf modelinin nəticəsi olaraq, ötən əsrin 90-cı illərində Sumqayıt şəhərinin yeni ictimai-iqtisadi münasibətlər sisteminin diktə etdiyi bazar reallıqlarına adaptasiyası sürətlənmişdir. Respublikanın iqtisadi cəhətdən çətin vəziyyətdə olmasına baxmayaraq ulu öndər Heydər Əliyevin Sumqayıtın sənaye potensialının bərpası, mövcud müəssisələrin modernləşdirilməsi, elmi innovasiyaların tətbiqinin sürətləndirilməsi istiqamətində həyata keçirdiyi tədbirlər tez bir zamanda müsbət nəticələrini göstərməyə başlamışdır.

## Sumqayıt Prezident İlham Əliyevin daim diqqət və qayğısını hiss edir

Sumqayıt şəhərinin tarixi ənənələr əsasında inkişaf edərək nəinki Azərbaycanın və Cənubi Qafqazın, ümumən Avropanın iri sənaye mərkəzlərindən birinə çevrilməsi, Bakı şəhəri ilə tam rəqabət aparmaq imkanına malik olması ulu öndər Heydər Əliyevin əsasını qoyduğu inkişaf strategiyasını uğurla davam etdirən və dövrün tələbinə uyğun zənginləşdirən Prezident İlham Əliyevin müəyyənləşdirdiyi əsas hədəflərdəndir. Bu gün Sumqayıt Prezident İlham Əliyevin daim diqqət və qayğısını hiss edir. Çünki son 12 ildə şəhərdə qazanılan hər bir sosial-iqtisadi uğur cənab Prezidentin adı ilə bağlıdır. Xüsusən regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının uğurla icrası çərçivəsində qarşıya qoyulan vəzifələrin reallaşdırılması Sumqayıt şəhərini də dinamik inkişaf yoluna çıxarıb. Olkənin makroiqtisadi gostəricilərində bu şəhərin xüsusi çəkisi yüksəlib, sahibkarlığın inkişafının daha da sürətləndirilməsi, istehsal və emal müəssisələrinin fəaliyyətinin bərpası və genişləndirilməsi, iqtisadi və sosial-mədəni infrastruktur obyektlərinin yenidən qurulması istiqamətində uğurlu nəticələr qazanılıb.

Digər tərəfdən, Sumqayıt müəyyən dövrdə itirdiyi sənaye şəhəri adını özünə qaytarır və bu yolda inamla irəliləyir. Deyə bilərik ki, Sumqayıt Azərbaycanın müasir sənaye mərkəzidir. Şəhərin iqtisadi strukturuna kimya və neft-kimya, qara və əlvan metallurgiya, maşınqayırma, elektroenergetika, yeyinti və yüngül sənaye, tikinti materialları istehsalı müəssisələri daxildir. Şəhərdə mövcud olan ağır sənaye müəssisələrinin əksəriyyəti müasir texnologiya əsasında yenidən qurulub. Sumqayıtda sənayenin inkişafı istiqamətində xəyal kimi görünən layihələr məhz Prezident İlham Əliyevin dolğun, aydın, konkret fəaliyyət prioritetləri çərçivəsində əzmlə, inadla, fədakarlıqla həyata keçirilir.

Oktyabrın 25-də Sumqayıta səfər edən Prezident İlham Əliyevin iştirakı ilə etilen-polietilen zavodunda yeni qurğuların işə salınması, yüksək sıxlıqlı polietilen zavodunun təməlinin qoyulması, texniki avadanlıqlar zavodunun açılması Sumqayıtın həqiqətən, ölkəmizin sənaye mərkəzinə çevrildiyini təsdiq edir. "Azərikimya" İstehsalat Birliyinin etilen-polietilen zavodunda yeni qurğuların işə salınması mərasimində Prezident İlham Əliyev deyib: *"Sumqayıt nəinki Azərbaycanın, Cənubi Qafqazın ikinci böyük sənaye şəhəridir. Bu gün Sumqayıtın potensialı artır, işsizlik aradan qaldırılır, şəhərin abadlaşdırılması üçün sosial sahədə əlavə tədbirlər görülür. Mən dəfələrlə demişəm, insanları narahat edən bütün məsələlər aradan qaldırılmalıdır. Sumqayıtda dəfələrlə olmuşam və istəyirəm ki, burada heç bir problem olmasın. Nə sosial sahədə, nə infrastruktur, nə idarəetmə sahələrində heç bir problem olmasın, insanlar rahat, rifah, əmin-amanlıq içində yaşasınlar. Sumqayıt bundan sonra da ölkəmizin sənaye və iqtisadi inkişafı işində öz sözünü deyəcək".*

## Ölkə rəhbərinin sərəncamları şəhərin yüksəlişinə böyük töhfə verir

Son aylar Sumqayıtda tikinti-quruculuq, abadlıq işləri daha ünvanlı, konkret və məqsədyönlü xarakter almışdır. Dövlət başçısının tapşırıq və göstərişləri əsasında şəhərin inkişaf və tərəqqisinə xidmət edən mühüm layihələrin icrasına başlanılmışdır. Xüsusilə qeyd etmək lazımdır ki, Prezident İlham Əliyevin bu layihələrin uğurla həyata keçirilməsi üçün müvafiq sərəncamlarla zəruri maliyyə vəsaitləri ayırması görülən işlərin səmərəli nəticələr verməsinə, yeniliklərin hər bir şəhər sakininin həyatında daha qabarıq hiss olunmasına imkan yaratmışdır.

Bu sərəncamlardan biri Sumqayıt şəhərində çoxmənzilli binaların dam örtüklərinin dəyişdirilməsi ilə bağlıdır. Cənab Prezidentin dekabrın 15-də imzaladığı bu sərəncamda deyilir: "Son illərdə Sumqayıt şəhərində geniş abadlıq-quruculuq işləri aparılmış, o cümlədən şəhərin mərkəzi küçələrinin asfalt örtüyü, işıqlandırma sistemi yenilənmiş, parklar salınmış, çoxmənzilli binaların sakinlərini narahat edən problemlərin aradan qaldırılması istiqamətində mühüm tədbirlər həyata keçirilmiş, lift təsərrüfatının yenidən qurulması sahəsində müəyyən işlər görülmüşdür".

Sərəncama əsasən bu istiqamətdə tədbirlərin davam etdirilməsinin vacibliyini nəzərə alaraq şəhərin mənzil fonduna daxil olan 100 çoxmənzilli binanın dam örtüyünün dəyişdirilməsi və zəruri təmir işlərinin həyata keçirilməsi məqsədilə Sumqayıt Şəhər İcra Hakimiyyətinə Azərbaycan Respublikasının 2015-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan 5 milyon manat ayrılıb.

Sumqayıt şəhərində avtomobil nəqliyyatı ilə sərnişin daşınması sahəsində idarəetmənin təkmilləşdirilməsi də diqqət mərkəzindədir. Bununla əlaqədar Prezident İlham Əliyev dekabrın 7-də müvafiq sərəncam imzalayıb. Sərəncama əsasən Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı yanında Sumqayıt Avtomobil Nəqliyyatı ilə Sərnişindaşıma İdarəsi yaradılacaq. Sumqayıt şəhərinin inzibati ərazisində "Pilot layihə" çərçivəsində sərnişin daşınmasının inkişafı sahəsində tədbirlər görülməsi, sərnişin daşıyan avtomobil nəqliyyatı subyektləri tərəfindən Azərbaycan Respublikasının normativ-hüquqi aktlarına riayət olunmasına nəzarət edilməsi, avtomobil nəqliyyatı ilə sərnişin daşınmasının təşkili və bu sahədə dövlət sifarişinin formalaşdırılması, avtomobil nəqliyyatı ilə sərnişindaşımanın vahid norma və qaydalar əsasında təhlükəsiz yerinə yetirilməsi üçün qanunvericilikdə nəzərdə tutulmuş qaydada tədbirlər görülməsi Sumqayıt Şəhər İcra Hakimiyyəti tərəfindən həyata keçiriləcək.

Oktyabrın 13-də Prezident İlham Əliyev "Sumqayıt şəhərində çoxmənzilli binaların lift təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" sərəncam imzalayıb. Sərəncamda qeyd olunur ki, son illər Sumqayıt şəhərində çoxmənzilli binaların sakinlərinin yaşayış şəraitinin yaxşılaşdırılması, onları narahat edən problemlərin aradan qaldırılması istiqamətində mühüm tədbirlər həyata keçirilmiş, o cümlədən lift təsərrüfatının yenidən qurulması sahəsində müəyyən işlər görülmüşdür. Bu istiqamətdə tədbirlərin davam etdirilməsinin vacibliyini və əhalinin müraciətlərini nəzərə alaraq Sumqayıt şəhərində lift təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi, dövlət mənzil fonduna aid olan çoxmənzilli binalarda istismara yararsız daha 76 liftin yeniləri ilə əvəz edilməsi məqsədilə Prezident İlham Əliyevin sərəncamına əsasən Sumqayıt Şəhər İcra Hakimiyyətinə Azərbaycan Respublikasının 2015-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan 3,7 milyon manat ayrılıb.

## Abadlıq və quruculuq işləri ünvanlı, konkret və məqsədyönlüdür

Fərəhlə deyə bilərik ki, əksər region və Avropa ölkələrindən fərqli olaraq, böhranın yeni dalğası Azərbaycanda infrastruktur layihələrinin həyata keçirilməsinə hansısa çətinlik yaratmır. Bunu Sumqayıtın timsalında aydın görmək mümkündür. Dinamik abadlıq və quruculuq işləri Sumqayıtda daha qabarıq hiss olunur. Çünki bütün bu işlər yeni mərhələyə qədəm qoyub və şəhər quruculuq meydanını xatırladır.

Qeyd etdiyimiz kimi, bu işlər daha ünvanlı, konkret və məqsədyönlü xarakter almışdır. Cənab Prezidentin müvafiq sərəncamları abadlıq-quruculuq işlərinin daha dolğun və yüksək keyfiyyətlə həyata keçirilməsinə mühüm töhfə verir. Hazırda şəhərin müxtəlif ərazilərində aparılan tikinti-quruculuq işlərinin geniş vüsət aldığının şahidi olmaq mümkündür. Diqqəti çəkən digər mühüm məqam ondan ibarətdir ki, abadlıq və quruculuq işlərinə daha çox şəhərin mərkəzdən kənar məhəllələrindən başlanılıb. İndi hansı istiqamətdən şəhərə daxil olsan, binaların üzlənməsinin, onlara dam örtüklərinin vurulmasının, mövcud dam örtüklərinin yenilənməsinin, yolların genişləndirilməsinin şahidi ola bilərsən.

Görülən işlərdən biri Sumqayıtın əsas giriş yolunun genişləndirilməsidir. Hazırda Sülh küçəsinin Bakı-Quba yolundan Koroğlu küçəsinə qədər olan 4 kilometrlik hissəsinin hər tərəfə 10 metr məsafədə genişləndirilməsi işləri aparılır. Şəhərin bu əsas küçəsində mövcud asfalt örtüyü 48 min kvadratmetrdir. Genişləndirmə işlərindən sonra isə 67 min 200 kvadratmetr olacaq. Səki örtüyü 6840 kvadratmetr təşkil edəcək. Həmçinin yolun işıqlandırılması üçün yeni işıqlandırma, yağış sularının axıdılması məqsədilə su, kanalizasiya və kommunikasiya sistemi quraşdırılacaq. Yolun hər iki tərəfində geniş yaşıllıq zolağı yaratmaqla həmişəyaşıl ağac, kollar və güllərin əkilməsi, piyada yolları və keçidlərinin salınması nəzərdə tutulur.

Əsas giriş yolları ilə yanaşı, məhəllədaxili yollar da təmir olunur. Belə ki, son iki ayda şəhərin 1-ci, 3-cü, 5-ci, 6-cı, 9-cu, 17 və 18-ci mikrorayonlarında, 19, 21, 45, 47 və 48 məhəllələrində daxili yollar, bağlar massivinə gedən 17 və 18 nömrəli marşrutların yolları əsaslı təmir olunub, yeni asfalt örtüyü salınıb. Ümumilikdə 300 min kvadratmetrdən çox sıradan sıxmış asfalt örtüyü yenilənib.

Sumqayıt sakinlərinin istirahət məkanlarından biri də Lüdviqshafen parkıdır. 1,8 ha ərazisi olan bu park 1997-ci ildə Sumqayıtla Almaniyanın Lüdviqshafen şəhəri arasında qardaşlıq əlaqələrinin 20 illiyi münasibətilə şəhərin 9-cu mikrorayon ərazisində salınıb. Hazırda şəhərdə abadlıq işlərinin aparıldığı ünvanlardan biri də bu parkdır. Qısa müddət ərzində park ərazisinə yeni və müasir daşlar döşənib, işıqlandırma sistemi yeniləri ilə əvəz olunub, müasir oturacaqlar quraşdırılıb, yaşıl landşaft yaradılaraq yeni ağaclar əkilib. Hazırda ərazidə müasir iaşə obyektinin tikintisi aparılır.

Şəhər rəhbərliyinin əsas diqqət yetirdiyi məsələlərdən biri isə körpələr evlərinin, uşaq bağçalarının istilik sistemləri ilə təchizatı və dam örtüklərinin yeniləri ilə əvəz olunmasıdır. Nəzərə alsaq ki, sərt qış ayları hələ qarşıdadır və bu mənada şəhərdə fəaliyyət göstərən körpələr evlərinin və uşaq bağçalarının dam örtüklərinin dəyişdirilməsi, davamlı istiliklə təmin olunması vacib məsələlərdən hesab olunur. Bu bir faktdır ki, həlli vacib əhəmiyyət kəsb edən həmin məsələ ilə bağlı son aylar intensiv işlər görülür. Şəhər rəhbərliyinin uşaqlara olan diqqət və qayğısı nəticəsində artıq 56 uşaq bağçasından 48-nin dam örtüyü əsaslı təmir olunub və onların hər birində yeni istilik sistemləri quraşdırılıb. Uşaqların bağçalarda qidalanması sahəsində keyfiyyət baxımından köklü dəyişikliklər olub.

## Şəhərin simasını daha da gözəlləşdirəcək layihələr icra olunur

Sumqayıtda şəhərin simasını daha da gözəlləşdirəcək digər layihələrin də həyata keçirilməsinə start verilib. Bu işlərin intensiv aparılması nəticəsində şəhərin görkəmi dəyişməyə başlayıb. Sumqayıtın əsas prospektləri olan Heydər Əliyev və Azərbaycan prospektlərində uzun illərdən bəri öz miskin görünüşü ilə şəhərin ümumi mənzərəsinə xələl gətirən binaların görkəminin dəyişdirilməsi sakinlər tərəfindən də böyük razılıq və minnətdarlıqla qarşılanır.

Hazırda Heydər Əliyev prospekti üzrə 4-cü məhəllədə 12/21, 14/19, 15/18, 13/20, 2/45, 16-cı məhəllədə 12/35, 14/33 saylı 3 mərtəbəli, Azərbaycan prospekti üzrə 11/18, 13/16, 12/17, 10/19 saylı 3 mərtəbəli və 1-ci məhəllədə 4, 6 saylı 4 mərtəbəli binalar yüksək keyfiyyətli aqlay üzlüklərlə və şəhərin ümumi memarlıq üslubu gözlənilməklə üzlənir. Xüsusilə qeyd etmək istərdik ki, keçən əsrin ortalarında tikilən evlərin fasadında olan naxış və ornamentlər yenidən aqlay daşı üzərində oyularaq bərpa edilir. Bu da şəhərin memarlıq üslubunun bərpası və qorunması istiqamətində atılan mühüm addımlardan biridir. Ümumilikdə indiyədək 13 yaşayış binasında gülbah daşı ilə üzlənmiş fasadların ümumi sahəsi 12 min kvadratmetr təşkil edir. Bundan əlavə, 9 mərtəbəli binaların üz fasadlarının yenidən rənglənməsi və dam örtüklərinin fransız mansardları ilə yenidən qurulması işləri aparılır. 18-ci mikrorayonda isə 42 yaşayış binasının 35-nin dam örtükləri müasir dəmir konstruksiyalı dam örtükləri ilə dəyişdirilib. Cari ilin axırına kimi digər dam örtüklərinin də dəyişdirilib yekunlaşması nəzərdə tutulur. Bu layihələr hələ başa çatmasa da, indiyə qədər görülən abadlıq işlərinin nəticəsində Heydər Əliyev və Azərbaycan prospektləri tamamilə yeni və gözəl görünüş alıb.

Son aylar Sumqayıtda görkəminə yeni rəng qatacaq sosial infrastruktur layihələrin də həyata keçirilməsinə start verilib. Bunların sırasında artıq təməli qoyulan yeni şahmat mərkəzi və incəsənət məktəbi şəhərin simasını daha da gözəlləşdirəcək. Heydər Əliyev parkında inşa olunan və müasir standartlara cavab verəcək şahmat mərkəzi həm də şəhərdə şahmatın inkişafına töhfələr verəcək. İkimərtəbəli binada yarış zalı, 7 sinif otağı, kompüter və kitabxana otağı, oyunların canlı izlənməsi və digər otaqlar yaradılacaq. Səid Rüstəmov adına 3 saylı uşaq incəsənət məktəbi üçün tikilən yeni bina isə 3 mərtəbədən ibarət olacaq. Bu məktəbin fəaliyyətə başlaması şəhər uşaq və yeniyetmələrin incəsənətə olan maraqlarını daha da stimullaşdıracaq.

Ölkə başçısının Sumqayıta olan böyük qayğısı, şəhərin sosial-iqtisadi inkişafına dair verdiyi sərəncamlar şəhər ictimaiyyəti tərəfindən böyük razılıq və ehtiramla qarşılanır. Yeni sosial obyektlərin tikilməsi, şəhərin görkəminin gözəlləşməsi istiqamətində həyata keçirilən tədbirlər yorulmaz fəaliyyətin nəticəsidir. Bu gün dinamik inkişafla yanaşı, sürətli abadlıq və quruculuq işləri Sumqayıtda daha qabarıq hiss olunur. Xüsusən son aylar abadlıq və quruculuq işləri yeni keyfiyyət mərhələsinə qədəm qoyub. Bütün bunlar ondan xəbər verir ki, Azərbaycanın və regionun əsas sənaye mərkəzlərindən birinə çevrilən Sumqayıt tezliklə həm də ən gözəl və modern şəhərlərdən biri olacaq.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

## SABAHIN SUMQAYITI























